# SƏHMDARLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

# (2013)

«Bank»ın adi səhm sahibləri aşağıdakı hüquqlara malikdir:

1. «Bank»ın idarə edilməsində qanunvericilik və bu Nizamnamə ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;
2. Səhmdarların Ümumi Yığıncağında özü və ya nümayəndəsi vasitəsilə səsvermə hüququ ilə iştirak etmək, təkliflər vermək;
3. Səhmdarların Ümumi Yığıncağı zamanı qərarların qəbulunda sahib olduğu səhmlərə uyğun olaraq səsvermə hüququndan istifadə etmək;
4. İldə bir dəfə «Bank»ın illik hesabatı və mühasibat balansı ilə tanış olmaq;
5. Səhmdarların Ümumi Yığıncağının çağırılmasını tələb etmək;
6. Səhmdarların Ümumi Yığıncağının gündəliyində dəyişikliklərin edilməsini tələb etmək;
7. Səhmdarların Ümumi Yığıncağının iclas protokolu ilə tanış olmaq, surətini və protokoldan çıxarışlar almaq;
8. Bu Nizamnaməyə və qanunvericiliyə uyğun olaraq «Bank»ın fəaliyyətinin ümumilikdə və ya hər hansı bir sahəsinin auditor tərəfindən yoxlanılmasını tələb etmək;
9. Sahib olduğu səhmləri qanunvericiliyə və bu Nizamnaməyə uyğun olaraq bütövlükdə və ya bir hissəsini özgəninkiləşdirmək və ya vəsiyyət etmək;
10. «Bank»ın xalis mənfəətindən dividend almaq;
11. «Bank» tərəfindən əlavə buraxılan səhmləri və digər qiymətli kağızları satın almaqda üstünlük hüququna malik olmaq;
12. «Bank»ın fəaliyyətinə xitam verildikdə, «Bank»ın kreditorlarının tələbləri yerinə yetirildikdən sonra hesablanmış, lakin ödənilməmiş dividendləri, habelə cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini sahib olduğu səhmlərə mütənasib olaraq əldə etmək;
13. Səhmdarların reyestrindən çıxarışlar və məlumatları əldə etmək;
14. Qanunvericiliklə müəyyən edilmiş qaydada «Bank»ın fəaliyyətinə dair digər məlumatlar almaq;
15. Qanunvericilikdə və bu Nizamnamədə təsbit edilmiş digər hüquqlar.